Təsdiq edirəm:

Azərbaycan Qiymətləndiricilər Palatasının

Rəyasət Heyətinin " 05 "fevral 2025-ci il tarixli

AQP 01/25 nömrəli qərarı ilə

Palatasının Rəyasət Heyətinin sədri Nüsrət İbrahimov

Bakı şəhəri, " 05 " fevral 2025-ci il.

Azərbaycan Qiymətləndiricilər Palatasının qiymətləndirici təşkilatlara dair

Reqlamenti

Bu Reqlament "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qiymətləndiricinin etik davranış qaydaları"na, Qiymətləndiricilər Palatasının Nizamnaməsinə (bundan sonra – Palata və Palatanın Nizamnaməsi), habelə digər əlaqəli qanunvericiliyə və Beynəlxalq Qiymətləndirmə Standartlarına (BQS) əsasən hazırlanmışdır.

1. Hüquqi status

Qiymətləndirici təşkilat Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçməli, fəaliyyət göstərməli, əsas fəaliyyət sahəsi qiymətləndirmə fəaliyyəti olmalı və qiymətləndirmə fəaliyyətinin istiqaməti (istiqamətləri) üzrə ixtisaslaşmalıdır.

Qiymətləndirmə fəaliyyəti istiqamətləri üzrə ixtisaslaşma təşkilatın Nizamnaməsində və dövlət qeydiyyatı sənədlərində göstərilməlidir.

Təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiricilərinin sayı azı 2 (iki) nəfər olmalı və həmin qiymətləndiricilərin hər biri sertifikatlı olmalıdır.

Bu Reqlamentin təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən azı 2 (iki) nəfər sertifikatlı qiymətləndiriciyə malik olması ilə bağlı tələbi 1 iyun 2026-cı il tarixindən qüvvəyə minir.

1 iyun 2026-cı il tarixinədək Palataya bir sertifikatlı qiymətləndirici ilə qiymətləndirici təşkilat kimi müraciət etmiş təşkilatlara bu tələbin yerinə yetirilməsi üçün 30 dekabr 2026-cı il tarixinədək möhlət verilir.

10 yanvar 2027-ci il tarixindən etibarən qiymətləndirici təşkilatların siyahısına yenidən baxılacaq və Reqlamentin tələblərinə uyğun olmayan təşkilatlar Palatanın qiymətləndirici təşkilatların siyahısından çıxarılacaqdır.

Təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiriciləri Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, ixtisas şəhadətnaməsi almış qiymətləndirici olmalı və Palatanın üzvü olmalıdır.

Təşkilatın əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiricilərinin qəsdən ağır və xüsusilə ağır cinayətlərə, korrupsiya cinayətlərinə və ya iqtisadi sahədə cinayətlərə görə məhkumluğu olmamalıdır.

2. Peşəkar fəaliyyətə dair tələblər

Təşkilat qiymətləndiricilərinin Palatanın tələblərinə uyğun əlavə təhsil almasını və ixtisasartırma tədbirlərində iştirakını təmin etməlidir.

Təşkilat və onun qiymətləndiriciləri Qiymətləndiricilər Palatası tərəfindən təsdiq edilmiş etik davranış qaydalarına riayət etməlidirlər.

Təşkilat qiymətləndirmə fəaliyyəti istiqamətində Palata tərəfindən qəbul edilmiş standartlara (məsələn, IVS – Beynəlxalq Qiymətləndirmə Standartları) uyğun fəaliyyət göstərməli və bu istiqamətdə təsdiqlənmiş yanaşma və metodları tətbiq etməlidir.

Təşkilat əmək müqaviləsi əsasında fəaliyyət göstərən qiymətləndiricilərinin peşə məsuliyyətinin sığortalanmasını təmin etməli və sığorta şəhadətnaməsi haqqında məlumatları Palatanın rəsmi internet səhifəsində yerləşdirmək üçün təqdim etməlidir.

Təşkilat sifarişçi ilə bağlanan müqavilələrdə və qiymətləndirmə nəticələri haqqında hesabatlarda qanunla müəyyən edilmiş məlumatları göstərməlidir.

3. Texniki və inzibati tələblər

Təşkilat Palatanın saytında qeydiyyat üçün aşağıdakı sənədləri təqdim etməlidir:

- Təşkilatın tam adı və hüquqi ünvanı;
- Nizamnamənin surəti;
- VÖEN və dövlət qeydiyyatı haqqında şəhadətnamə;
- Rəhbər şəxs haqqında məlumat;
- Fəaliyyət ünvanı və əlaqə vasitələri;
- Qiymətləndirici əməkdaşların siyahısı, ixtisas sənədləri və üzvlük statusu.

Fəaliyyət və kadr məlumatları dəyişdikdə Palataya 10 iş günü ərzində yazılı bildiriş təqdim edilməlidir.

4. Pozuntu halları və onlara qarşı tədbirlər

Palata aşağıdakı hallarda təşkilatı siyahıdan çıxara bilər:

- Məhkəmə qərarı əsasında;
- Özü, həmçinin əməkdaşları haqqında saxta və ya yalan məlumat və sənədlərin təqdim edilməsi;
- Beynəlxalq və milli qiymətləndirmə standartlarının kobud şəkildə pozulması;
- Qiymətləndiricinin etik davranış qaydalarının və ya qanunvericiliyin pozulması;

- Palata tərəfindən qanuni fəaliyyətin təmin olunması, qanunvericiliyin icrası və dövlət orqanları ilə əməkdaşlıq məqsədilə tələb edilən sənədlərin və məlumatların müəyyən edilmiş müddətdə qiymətləndirici təşkilat tərəfindən təqdim edilməməsi.